# *Danfeng ZHU:* "QHT-lər, təşkilatlar öz ölkələrini iqlimlə bağlı fəaliyyətə görə daha məsuliyyətli olmağa çağırmalıdır"

"COP29-da iştirak edən insanların bir çoxu yaxşı layihələr həyata keçirib. Düşünürəm ki, bu, bir-birimizi tanımaq, əlaqələr qurmaq üçün yaxşı fürsətdir ki, biz gələcəkdə qarşılıqlı əməkdaşlıq edə bilək".




Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı İqlim üzrə Qlobal Universitetlər Alyansının gənclər səfiri Danfeng Zhu deyib.

"Mən həmişə Paris Sazişi haqqında məlumat alıram. Bunun üçün beynəlxalq danışıqların praktiki təcrübəsini daha çox öyrənmək istəyirəm. COP29-da çox insanla tanış olmaq istəyirəm. Bununla yanaşı, mən də öz layihəmi inkişaf etdirmək istəyirəm. İqlim keçidində maliyyə çox vacib mövzudur. Hökumətin öz prioritetləri olduğunu düşünürəm. Hesab edirəm ki, QHT-lər, təşkilatlar öz ölkələrini iqlimlə bağlı fəaliyyətə görə daha məsuliyyətli olmağa çağırmalıdır", - deyə o qeyd edib.

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.10.